

# Dünyanın hər yerindən görünən adam

**Dünyanın hansı tərəfindən baxsan Prezident İlham Əliyevi görmək olar. O bu zirvəyə işi, əməli, şəxsiyyətinin bütövlüyü, Azərbaycanı iqtisadi inkişaf yoluna çıxarmaqla, dünya siyasi düzənində ölkəsini söz sahibi etməklə, qətiyyəti, prinsipiallığı, sözünə verdiyi dəyərlə ucalıb. İlham Əliyev illərdir regionda sülhə, təhlükəsizliyə, birgəyaşayışa təhdid olan Ermənistan ordusunu məhv etməklə xalqımızın və regionda yaşayan millətlərin sevigisini qazanıb.**

Dünyada bir millətin tarixi və taleyində rolu olmaq xoşbəxtliyi çox nadir şəxsiyyətlərə nəsib olur. İlham Əliyev xalqının şərəf tarixini yeniləyən, insanlarına zəfərlər qazandıran qüdrətli şəxsiyyətdir. İlham Əliyev Azərbaycandır. O, dünyada necə görünürsə, Azərbaycan da elə görünür. Bu gün ölkəmiz hərbi qüdrəti, iqtisadi gücü, siyasi çəkisi ilə olduqca əzəmətlidir.

Prezident İlham Əliyev sülh adamıdır, xilaskardır. O, möhtəşəm Azərbaycan Ordusunu qurub qələbəyə aparmaqla yalnız illərdir işğal altında olan Qarabağ torpağını azad etmədi. Böyük sərkərdə Qarabağı və Şərqi Zəngəzuru azad etməklə həm də əsrlərlə "böyük Ermənistan" yaratmaq xülyasına düşən, bu çürük ideologiyanın əsiri olan erməni xalqını qəflət yuxusundan oyatdı. 44 günlük Zəfər müharibəsinin ağır nəticələrini görən erməni xalqı anladı ki, nəinki dənizdən-dənizə "böyük Ermənstan" qura, hətta hazırkı iqtisadi tənəzzülə uğrayıb yoxsulluq girdabında çabalayan Ermənistanı da müstəqil dövlət kimi itirə bilərlər.

İlham Əliyev qurucu Prezidentdir. Hər gün abadlaşan, yenilənən, iqtisadi gücü ilə regionun lider dövlətinə çevrilən Azərbaycan dövlətimizin başçısının əsəridir. Azərbaycan böyük bir tikinti meydançasına bənzəyir. Sürətli quruculuq işləri ölkə rəhbərinin şəxsi nəzarəti altında da işğaldan azad olunmuş torpaqlarımızda daha böyük inamla aparılır. Qarabağ və Şərqi Zəngəzur Azərbaycan dövlətinin hərbi və iqtisadi gücünün simvoluna çevrilib. Düşmənin qaranlığa qərq edib xarabazara çevirdiyi yurd yerlərimiz ikinci həyatını yaşayır.

Ölkəmizin rəhbəri İlham Əliyev dünyada barış missiyası ilə tanınan və qəbul edilən nadir şəxsiyyətlərdəndir. Dünyanın bir sıra münaqişəli dövlətləri onun vasitəçilik missiyasını məmnuniyyətlə qəbul edirlər. Çünki o, birləşdirici Prezident, böyük nufuza malik siyasi liderdir. Türk dövlətləri heç bir zaman indiki qədər bir-birinə yaxın olmayıblar. Dünyanın böyük bir münaqişə ocağına döndüyü indiki vaxtda Türk Dövlətləri Təşkilatının yaranmasını təsadüfi hadisə hesab etmək olmaz. İndiyə kimi iqtisadi, siyasi, mədəni əməkdaşlıqla kifayətlənən bu dövlətlər arasında yaxın gələcəkdə hərbi əməkdaşlığın da olacağı istisna edilmir.

Prezident İlham Əliyevdə siyasi liderə, dövlət xadiminə xas bütün müsbət keyfiyyətləri görmək mümkündür. Uzaqgörənlik, praqmatiklik, hadisələri qabaqlamaq qabiliyyəti dövlət xadiminə xas başlıca məziyyətlərdir. Vətənini sevən hər kəsin Tanrının dövlətimizin başçısına əsirgəmədən verdiyi bu keyfiyyətlərlə qürur duymaqda tam haqqı var. Sadaladıqlarımızın təsdiqi üçün bir faktı qeyd etsək kifayət edər. Ölkəmiz 2017-ci ildə Qoşulmama Hərəkatına üzv olub. 2020-ci ildə Qoşulmama Hərəkatına növbədənkənar sədrliyi dövlətimizin başçısı İlham Əliyev edib. 2020-ci ilin oktyabrında BMT-nin Təhlükəsizlik Şurasında böyük dövlətlərin təklifi və təzyiqi ilə ölkəmizə qarşı mürtəce qətnamə qəbul edilməsinin qarşısı Qoşulmama Hərəkatına üzv dövlətlərinin ciddi səyləri ilə alındı. Siyasətdə təsadüfi heç nə olmur.

Möhkəm iradə, vaxtında düzgün qərar qəbuletmə xüsusiyyəti, qətiyyətlilik Prezident İlham Əliyevi fərqləndirən əsas xüsusiyyətlərdəndir. Müdriklərin belə bir deyimi var: "Ən çətin məqamlarda düzgün qərar verə bilməyənlərdən qəhrəman olmaz". 30 ilə yaxın bir müddətdə torpaqlarımızın erməni işğalı altında qalması xalqımızın səbir kasasını daşdırırdı. Xalq seçdiyi Prezidentindən düşmənə layiq olduğu cavabı verməsini gözləyirdi. Bu bir həqiqət idi ki, dünyanın bir sıra böyük dövlətlərinin həvəslə silahlandırdığı Ermənistanın hərbi arsenalı ilə müqayisədə zəif idik. Eyni zamanda dövlətimizin başçısı qan tökülmədən problemin həllinə çalışırdı. Ermənilər isə Birinci Qarabağ müharibəsində qazandıqları müvvəqqəti qələbənin eyforiyasından çıxıb, təklifləri dəyərləndirmək gücündə deyildi. Azərbaycan Prezidenti dəfələrlə və qətiyyətlə bildirmişdir ki, torpaqlarımızın bir qarışını da kimlərəsə güzəştə gedən deyil. Əgər sülh danışıqları nəticə verməsə, torpaqlarımızı hərbi yolla geri alacağıq. Hərbi yolla torpağı azad etməyin yeganə yolu isə qüdrətli orduya sahib olmaqdan, ölkənin iqtisadi potensialını gücləndirməkdən keçirdi. O, qarşıya qoyulan məqsədə doğru səbirlə, addım-addım irəliləyirdi. Əvvəl ölkəni regionun lider dövləti səviyyəsinə qaldırdı, sonra qurduğu ordu ilə torpaqları azad etdi.

44 günlük Vəyən müharibəsində qələbəni labüd edən əsas və başlıca şərt ordunun, düşmənin üzərinə cəsarətlə gedən əsgərin öz Ali Baş Komandanına olan inamı idi. Əsgər yaxşı başa düşürdü ki, arxasında ən düzgün qərarları vaxtında qəbul etməyi bacaran Ali Baş Komandan var. Əsgər əmin idi ki, döyüşlərdə şəhid olarsa, ailəsi ortalıqda qalmayacaq, dövlətin qayğıkeşliyi ilə əhatə olunacaq. "Biz böyük bir ailəyik", - deyən dövlətimizin başçısı onun ailəsinə öz ailəsi kimi sahib çıxacaq. Elə bu səbəbdən də oğullarımız "mənim Prezidentim", "mənim dövlətim", "mənim Vətənim", "mənim Bayrağım", - deyib düşmən üzərinə yeridilər.

Etiraf edək ki, düşmən güclü idi. Hərtərəfli müqavimət göstərirdi. Xüsusilə döyüş meydanında çənbər daraldıqca, ordumuz düşmənin üzərinə yeridikcə üstümüzə gələnlərin, dövlətimizə hücum edənlərin sayı artırdı.

Dünyada iki cür müharibə olur. Silahlı və informasiya müharibəsi. Ermənilər hər iki cəbhəni var gücləri ilə işə salıb döyüşürdülər. Şükürlər olsun ki, hər iki meydanda qazanan Azərbaycan oldu. Ona görə ki, hər iki cəbhənin komandanı İlham Əliyev idi. Hər iki cəbhənin sərkərdəliyi onun əlində idi. Nəhayət, Ali Baş Komandanın təkrarolunmaz idarəetmə bacarığı, inkarolunmaz fitri istedadı Ermənistanı çökdürdü, düşmənin dizini yerə gətirdi. Ermənistan daha rüsvayçı məğlubiyyətdən yaxa qurtarmaq üçün aman dilədi.

Siyasət elmdir. Rasional hesablama aparmağı bacarmaq deməkdir. Bu gün dünyanın bir sıra ölkələri enerji böhranı ilə üz-üzədirlər. Xüsusilə Rusiya və Ukrayna arasında gedən müharibə Avropa ölkələrini ciddi sınağa çəkir. Belə bir məqamda şərt kimin yanında durmağı müəyyən etmək deyil. Əsas odur ki, kim sənin yanında duracaq. Ölkən, təmsil etdiyin dövlət qlobal təhlükələrdən necə qorunacaq. Şükürlər olsun ki, İlham Əliyevin zərgər dəqiqliyi ilə apardığı energi siyasəti dövlətimizə uğur gətirir. Avropanın əksər dövlətləri bu sahədə ölkəmizlə əməkdaşlığa can atırlar. Hətta Azərbaycan Prezidenti ilə dostluq etməkdən qürur duyduqlarını açıq şəkildə ifadə edirlər.

Prezident İlham Əliyev mahiyyət etbarilə qurucu, yaradıcı və həyat eşqi ilə zəngin insandır. Bu ömrün illərini kitab kimi vərəqləsək, o kitabdan inkişafa, qurub-yartmağa aid zəngin səhifələri oxumuş olarıq. Müasir Azərbaycan dövlətini inkişafa, iqtisadi, siyasi yüksəlişə aparan, hərbi qüdrətini təmin edən, ömrünü xalqının inkişafına və tərəqqisinə sərf edən Xilaskar Prezidentin obrazını görərik.

Azərbaycan xalqı xoşbəxtdir ki, nəyin necə və nə vaxt ediləcəyini bilən, praqmatik, qətiyyətli, "dəmir yumruğ"a və dəmir iradəyə sahib lideri var. Onun iradəsi, qətiyyəti, apardığı uğurlu siyasət bizi addım-addım zirvələrə aparır. Elə bir zirvəyə ki, dünyanın hansı tərəfindən baxsan Azərbaycan görünür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 24 dekabr.- S.16.